*Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan – Gürcüstan – Türkiyə üçtərəfli formatı var, Azərbaycan – İran – Türkiyə üçtərəfli formatı var, Azərbaycan –İran – Rusiya üçtərəfli formatı var.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*



# Çoxsaylı tərəfdaşlarımız Azərbaycana inanır və etibar edirlər

***Ötən il sentyabrın 27-dən etibarən Azərbaycanın erməni təxribatına cavab vermək üçün başladığı əks-hücum əməliyyatları qısa müddətdə öz ərazi bütövlüyümüzün bərpası üçün qalxdığımız Vətən müharibəsinə çevrildi, apardığımız siyasi, diplomatik və hərbi gedişlər təkcə ordumuzun möhtəşəm qələbəsi ilə nəticələnmədi. Biz həm də ermənilərin əsrlərdən bəri uydurduqları yalanların ifşasına nail olduq. Bundan başqa, hərbi əməliyyatlarla paralel apardığımız siyasi-diplomatik mübarizə düşmənin regionda təklənməsinə zəmin yaratdı. Ekspertlər haqlı olaraq yazırlar ki, İlham Əliyev Ermənistan ordusunu darmadağın etməklə yanaşı, düşmən ölkənin diplomatiyasına da sarsıdıcı zərbələr vurdu.***

Bu məqama xüsusilə toxunan dövlət başçımız xatırladır ki, Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və buna nail olduq: “Son 17 il ərzində, demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar, qətnamələr qəbul ediblər. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər”.

Ölkəmiz bu məqama çatana qədər BMT Təhlükəsizlik Şurasına və AŞPA Nazirlər Komitəsinə sədrlik etmiş, İslam Əməkdaşlıq Təşkilatında, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasında özünəməxsus fəaliyyət göstərmiş, “Bakı prosesi” kimi möhtəşəm siyasi diplomatik platforma yaratmışdır. 44 günlük müharibədən əvvəlki illərdə isə ölkəmiz Qoşulmama Hərəkatına üzv olmuşdur. Prezident xatırladırki, yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik – bizim maraqlarımıza xidmət edən qətnaməni. Bu gün Qoşulmama Hərəkatının sədri kimi öz sözümüzü dünya miqyasında deyirik. Onu da bir daha demək istəyirəm ki, müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı.

Yeri gəlmişkən, ötən ilin dekabrında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

İlham Əliyevin siyasi uzaqgörənliyinin nəticəsidir ki, Azərbaycan regionda qonşu ölkələrlə sıx münasibətlər qurmuşdur. Dövlət başçımızın təbirincə desək, əvvəllər, nədənsə, hesab olunurdu ki, regionda Azərbaycanın və Ermənistanın ənənəvi müttəfiqləri var. Azərbaycan rəhbərliyi bu köhnə təfəkkürü darmadağın etdi. Nəticədə, bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Çünki siyasətimizi düzgün qurmuşuq. Dövlət başçımız qətiyyətlə deyir ki, biz dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik: “Bizimlə hesablaşmağa başlamışlar. Bizim sözümüzə inanırdılar və inanırlar. Həmişə demişəm, sözüm imzam qədər qüvvətlidir”.

Region ölkələrinin Azərbaycana inanıb etimad göstərdiyini sübut edən bəzi məqamları yada salmaq istərdim. Məsələn, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ötən il noyabrın 17-də “Rossiya 24” telekanalına müsahibəsində demişdi ki, heç kim, hətta Ermənistan belə Qarabağın müstəqilliyini tanımayıb: “Bu, beynəlxalq hüquq baxımından nə deməkdir? Azərbaycan Azərbaycan hesab etdiyi əraziləri geri qaytardı və bütün dünya ictimaiyyəti onu Azərbaycan ərazisi saydı. Bununla əlaqədar olaraq, onun bu məsələdə ona məlum köməkliyi göstərən müttəfiqi seçmək hüququ var idi”.

Yeri gəlmişkən, cənab Putin ermənilərin 10 noyabr bəyanatından sonrakı həyasızlıqlarına cavab olaraq demişdir ki, “Beynəlxalq hüquqa görə, Qarabağ həmişə Azərbaycanın ayrılmaz hissəsi olub, KTMT müdaxilə edə bilməzdi, çünki heç kim Ermənistana hücum etməyib.

Yaxud, ötən il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsindəki qələbəyə həsr olunmuş zəfər paradında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Qarabağı otuz il boyunca sinəmizdə yara etdik” ifadəsindən sonra Azərbaycan xalqına müraciət edərək demişdi ki, Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur “Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerləyeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır”.

Regionun digər bir güclü dövləti – İran İslam Respublikası da Azərbaycanın haqq işini dəstəkləmiş və bizim sülhpərvərliyimizi alqışlamışdır. Qonşu ölkənin xarici işlər naziri Məhəmməd Cavad Zərif yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olarkən dövlət başçımızı əmin etdi ki, Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsi və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacağam, çünki region ölkələrinin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur: “Ölkənizin ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır. Biz Sizin dostunuz olmaqdan əlavə, yaxın qonşuyuq və əhalinin qayıdacağı, yenidənqurma işlərinin aparılacağı ərazilərinizin bərpası baxımından digər ölkələr ilə müqayisədə üstünlüyə malikik. Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olub”.

Azərbaycanın ən etibarlı tərəfdaşlarından olan Pakistan rəhbərliyi də daim ölkəmizin ərazi bütövlüyünü və dövlətimizin haqq işini dəstəkləmişdir. “Radio Pakistan” xəbər verir ki, bu il yanvarın 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşən Pakistan Prezidenti Arif Alvi Qarabağın işğaldan azad olunması münasibətilə xalqımızı və hökumətimizi təbrik edərək, ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. Dost ölkənin rəhbəri iki ölkə arasında ticarət həcminin genişləndirilməsinin, mədəni və ticarət əməkdaşlığının daha da təşviq edilməsinin vacibliyini vurğulayaraq deyib ki, biz Azərbaycana inanır və etibar edirik.

Ölkəmizin etibarlı və sədaqətli dostlarından daha birinin bizə olan inamının göstəricisini də yada salaq. Bu il yanvarın 21-də Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında “Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu”nun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında keçirilən videokonfrans formatında görüşdə dost ölkənin rəhbəri fəxrlə etiraf etmişdi ki, bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir.

Dost ölkənin rəhbəri xatırlatmışdır: “Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə, dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər. Burada iki dövlətin beynəlxalq təşkilatlarda da fəal və səmərəli qarşılıqlı fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Türkmənistan onun beynəlxalq təşəbbüslərinin daim dəstəklənməsinə və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qətnamələrinin Türkmənistan tərəfindən irəli sürülmüş bir sıra layihələrinin həmmüəllifi kimi Azərbaycana təşəkkürünü bildirir. Öz növbəmdə mən də Türkmənistanın Azərbaycanın beynəlxalq qurumlarda irəli sürdüyü təşəbbüsləri və təklifləri dəstəkləməyə hazır olduğunu təsdiq edirəm”.

Bəli, 2020-ci ili region üçün mühüm tarixə çevirən 44 günlük müharibədən, daha doğrusu, ölkəmizin şanlı Qələbəsindən sonra Azərbaycanın haqq işini dəstəkləyənlər gündən-günə çoxalır. Adını çəkdiyimiz ölkələrlə yanaşı, İtaliyadan, Gürcüstandan, Ukraynadan və digər ölkələrdən eşitdiyimiz səmimi dostluq mesajları sübut edir ki, Azərbaycan sabah bugünkündən daha güclü və qüdrətli olacaq.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***